# Dünyanın ən gözəl şəhəri - BAKI



"Neçə-neçə sərhəd keçib, ölkə gəzəndən sonra buna bir daha əmin oldum..."

Bakının 2009-cu il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi və bu şərəfli missiyanı uğurla daşıması bütün Azərbaycan vətəndaşları - ziyalılarımız, elm və mədəniyyət xadimlərimiz kimi yazıçı-publisist Salatın Əhmədlidə də xüsusi qürur hissi doğurur.

Müxbirimizlə söhbəti zamanı o, bununla bağlı təəssüratını belə bölüşmüşdür:

- Danışacaqlarım subyektiv fikirlərimdir. Amma bir çox həmkarlarım, şair, yazıçı və incəsənət xadimləri ilə görüş zamanı hiss etmişəm ki, əslində hamının verdiyi qiymət eynidir. Bakımızın yer üzərində tayı-bərabəri yoxdur.

Dünyanın çox şəhərlərində olmuş, İtaliya, Çexiya, İspaniya, Fransa, Misir, Böyük Britaniya, Malayziya, Yunanıstan, Türkiyə, MDB və Skandinaviya ölkələrini gəzmişəm. Keçdiyim sərhədlərdə, dolaşdığım dövlətlərdə Bakı heç vaxt gözlərim önündən getməyib. Yaxşı-yamanı, onunla müqayisə etmiş, paytaxtımızın daha da yaraşıqlı olmasını arzulamışam.



Möhtərəm Prezidentimizin bilavasitə göstərişi, qayğı və diqqəti sayəsində son illər bu istiqamətdə möhtəşəm addımlar atılıb. Yeni körpülər, yeraltı və yerüstü keçidlər, uca, yaraşıqlı binalar Bakımızın gözəlliyini daha da artırıb.

Respublikamıza axışan turist və qonaqlar, burada keçirilən konfrans, simpozium, festival və müsabiqələrə qoşulan elm və mədəniyyət xadimləri qısa zaman kəsiyində bu qədər işlər görüldüyünə heyrətlərini gizlədə bilmirlər...

S.Əhmədlini oxucularımıza təqdim edərkən ilk növbədə onun özündə cəmləşdirdiyi müsbət insani xüsusiyyətlərdən söz açmalıyıq.

Salatın xanımda diqqət çəkən cəhətlər çoxdur. Səmimi və təvazökardır. Sənətinə məhəbbəti və tələbkarlığı, vəzifəsinə məsuliyyəti ilə seçilir. Məhsuldar fəaliyyəti ilə fərqlənir. Duzlu qələmi var. "Misirə səyahət", "Onu zaman seçib", "Poylu-beşiyim mənim", "Səfərnamə", "Azərbaycan poeziya çələngi" və s. kitabları, çoxsaylı publisistik məqalələri oxucular tərəfindən maraqla qarşılanıb.

Təqdirəlayiq cəhətlərindən biri də odur ki, dəvət aldığı ölkələrdə Azərbaycanı yalnız ləyaqətlə təmsil etməklə qalmır, həm də təəssüratlarını bir-birindən oxunaqlı kitab və məqalələrlə bizlərə çatdırır, həmin şəhərlər haqqında məlumatımızı zənginləşdirir...

Növbəti saylarımızdan etibarən Salatın xanımın səfər qeydlərini diqqətinizə verəcəyik...

● E.HƏSƏNQIZI





